# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsi anılıb

**Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun doğum günü münasibətilə tədbirlər keçirilib.**



AZƏRTAC xəbər verir ki, aprelin 25-də Müdafiə Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Şuşa və Nərimanov Rayon İcra hakimiyyətlərinin rəsmiləri, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcması, "Veteran Tankçılar" İctimai Birliyi və ictimaiyyət nümayəndələri Birinci Şəhidlər xiyabanında əvvəlcə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək önünə qərənfillər düzüblər.

Xalqımızın qəhrəman oğlu Həzi Aslanov haqqında bir neçə kitabın müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, Milli Qəhrəmanın doğum günündə ilk olaraq Həzi Aslanovun məzarını ziyarət etməyimiz heç də təsadüfi deyil.

Ulu Öndər Heydər Əliyev Həzi Aslanovun xidmətlərini həmişə yüksək qiymətləndirib. Heydər Əliyevə görə, Həzi Aslanov İkinci Dünya müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olub, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirib, Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirib.

Milli Qəhrəman Albert Aqarunovun məzarı önünə güllər düzülüb, xatirəsi ehtiramla yad edilib. Din xadimləri şəhidlərin ruhuna dualar oxuyub, ziyarətçi veteranlar xatirələrini söyləyiblər.

Milli Qəhrəmanın Nərimanov rayonunda ucaldılan möhtəşəm abidəsi qarşısına Müdafiə Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcması və "Veteran Tankçılar" İctimai Birliyi adından əklillər və çələng qoyulub. Şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani ziyarətçiləri salamlayaraq qeyd edib ki, İsrail Dövlətinin müstəqilliyinin 75-ci ildönümü münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev bu gün İsrail Dövlətinin Prezidenti zati-aliləri İsxak Hersoqa təbrik ünvanlayıb. Həmin təbrikdə qeyd olunur ki, Azərbaycan-İsrail əlaqələrinin daim yüksələn xətlə inkişaf edərək bugünkü səviyyəyə çatması məmnunluq doğurur. Bunun təməlində xalqlarımızı birləşdirən çoxəsrlik möhkəm dostluq və qarşılıqlı rəğbət hissləri dayanır.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, "Veteran Tankçılar" İctimai Birliyinin sədri Hacı Əzimov, Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini Novruz Nəcəfov, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Səlhət Abbasova, Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov və başqaları çıxış edərək Ulu Öndərdən miras azərbaycançılıq məfkurəsindən danışıb, respublikamızda yaşayan bütün xalqların Azərbaycan naminə Müzəffər Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqlarını bəyan edib, şəhidlərin adlarının əbədiləşdirilməsi, ailələrinə göstərilən dövlət qayğısına və diqqətə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Tədbir iştirakçıları hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında Milli Qəhrəman Albert Aqarunovun doğum günü münasibətilə keçirilən vətənpərvərlik tədbirindən ayrılıblar.

Azərbaycan.- 2023.- 26 aprel.- S. 12.